Uğursuz anlarda qalsam da naçar,
Namərdlər əliylə biçilməmişəm.

Sinəmdə söz mülkü aşıb, daşıbdı,
Xəyalım göyləri hey dolaşıbdı.
Göylərin mahiylə qucaqlaşıbdı.
Heç bir ölçülərlə ölçülməmişəm.

28.08.2023

## Şəhidim

Vətəninin, Anasının, yolunda,
Canından, qanından, keçdi Şəhidim.
Ucaldı köylərə Mələk donunda.
Haqqın dərgahına köçdü Şəhidim.

Ruhunuz önündə şam tək yanıram,
Xəyalımda sizlə bir dolanıram.
Yaşamaq gücümü sizdə alıram,
Namuslu haqq yolu seçdi Şəhidim.

Ruhumu aparın, göylərdə qalım,
Arzumdu kamımı sizlərdən alım.
Qovuşum, qayıtsın Şəhid vüsalım,
Cənnət, badəsini içim, şəhidim.

Türküstan.- 2023- cü il.- 24-30 oktyabr.- S. 11.- № 38.

**İmam CƏMİLLİ**

## Kiçilməmişəm

Toxunma, aləmim sirlə doludur,
Dünyanın sirri tək açılmamışam.
Kimsənin əlində oyuncaq olub,
Kimsənin əlində kiçilməmişəm.

Kəşf olur gecələr bağlı buxçalar,
Toxunur, gündüzlər sirli xalçalar.